Kollec

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRİ

ƏMR

№ 49

Bakı şəhəri

"27" 01 2017 il

**"Orta ixtisas təhsili müəssisələrində tələbələrin köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsinə dair müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 402 nömrəli əmri ilə təsdiq olunmuş "Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin köçürülməsi, tələbələr sırasından xaric edilməsi və bərpa olunması, akademik məzuniyyət alması və təkrar kursda saxlanılması haqqında Əsasnamə"nin müddəalarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 dekabr 2013-cü il tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" ilə ziddiyyət təşkil etdiyini, o cümlədən akademik uğursuzluq və dərslərə davamiyyətə görə tələblərin xaric olunması tələbinin aradan qaldırıldığını nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2011-ci il tarixli 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 3.9-cu bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Orta ixtisas təhsili müəssisələrində tələbələrin köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsinə dair müvəqqəti Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Orta ixtisas təhsil müəssisələrinin rəhbərləri "Orta ixtisas təhsili müəssisələrində tələbələrin köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsinə dair müvəqqəti Qaydalar"ı işdə rəhbər tutsunlar.

3. Elm, ali və orta ixtisas təhsili şöbəsi (Y.Piriyev) bu əmrdən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 402 nömrəli əmri ilə təsdiq olunmuş "Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin köçürülməsi, tələbələr

sırasından xaric edilməsi və bərpa olunması, akademik məzuniyyət alması və təkrar kursda saxlanılması haqqında Əsasnamə" qüvvədən düşmüş hesab edilsin.

5. Əmrin orta ixtisas təhsili müəssisələrinə göndərilməsi, eləcə də "Azərbaycan müəllimi" qəzetində dərc edilməsi İnformasiya şöbəsinə (E.Əliyev) həvalə olunsun.

6. Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova tapşırılsın.

**Mikayıl Cabbarov**

ƏSLİ İLƏ DÜZDÜR

İNFORMASİYA ŞÖBƏSİ

**Orta ixtisas təhsili müəssisələrində tələbələrin köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsinə dair**

**MÜVƏQQƏTİ QAYDALAR**

## 1. Ümumi müddəalar

1.1. Orta ixtisas təhsili müəssisələrində təhsilalanların (tələbələrin) köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsinə dair müvəqqəti Qaydalar (bundan sonra Qaydalar) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2011-ci il tarixli 7 nömrəli qərarı ilə təsdiq olunmuş "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə və 26 dekabr 2013-cü il tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları"na uyğun hazırlanmış və tələbələrin bir orta ixtisas təhsili müəssisəsindən və ya ixtisasdan digərinə köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsi məsələlərini tənzimləyir.

1.2. Bu Qaydalar tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının bütün orta ixtisas təhsili müəssisələrinə (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) şamil edilir.

1.3. Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin bir orta ixtisas təhsili müəssisəsindən və ya təhsil proqramından (ixtisasdan) digərinə köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsi məsələləri də bu Qaydalarla tənzimlənir.

1.4. Orta ixtisas təhsili müəssisələrində tələbələrin bir orta ixtisas təhsili müəssisəsindən digərinə köçürülməsi, ixtisasının və (və ya) təhsilalma formasının dəyişməsi, tələbələr sırasına bərpası və akademik məzuniyyətdən qayıtması qış və yay tətili dövründə həyata keçirilir.

1.5. Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təsil bazasından qəbul olunmuş tələbələrin birinci tədris ilində bir orta ixtisas təhsili müəssisəsindən və ya təhsil proqramından (ixtisasdan) digərinə köçürülməsinə yol verilmir.

1.6. Bir orta ixtisas təhsili müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət hesabına təhsilalanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

1.7. Fəaliyyət göstərdiyi ölkədə akkreditə olunmayan xarici ölkə orta ixtisas təhsili müəssisələrinin tələbələrinin Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə köçürülməsinə yol verilmir.

Xarici ölkələrin orta ixtisas təhsili müəssisələrində təhsilalan şəxslərin Azərbaycan Respublikasında fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinə köçürülməsi

məsələlərinə həmin şəxslərin köçürülmək istədikləri təhsil müəssisəsinin rəhbərinin müraciəti ilə Təhsil Nazirliyində bu Qaydalar əsasında baxılır. Xarici ölkələrin orta ixtisas təhsili müəssisələrindən köçürülən tələbələr təhsilini yalnız ödənişli əsaslarla davam etdirirlər.

1.8. Mülkiyyət növündən asılı olmayaraq orta ixtisas təhsili müəssisələrində tələbələrin bir orta ixtisas təhsili müəssisəsindən və ya ixtisasdan digərinə köçürülməsi, xaric olunmuş şəxslərin tələbələr sırasına bərpası (əvvəl təhsil aldıqları orta ixtisas təhsili müəssisəsinə öz ixtisasları üzrə bərpası istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir. Digər nazirlik, dövlət komitəsi və ya idarələrin (bundan sonra - dövlət qurumu) tabeliyində olan dövlət orta ixtisas təhsili müəssisələrinə tələbələrin köçürülməsi və bərpası zamanı onların tabe olduqları dövlət qurumunun razılığı da tələb olunur.

1.9. Orta ixtisas təhsili müəssisəsi ilə bağlanmış müqaviləyə əsasən tələbənin təhsil haqqını hər hansı fiziki və ya hüquqi şəxs ödədiyi təqdirdə, başqa orta ixtisas təhsili müəssisəsinə və ya ixtisasa köçürülmə həmin şəxslə yazılı qaydada razılaşdırılır.

1.10. Tələbə bir orta ixtisas təhsili müəssisəsindən (ixtisasdan) digərinə köçürüldüyü, tələbələr sırasına bərpa olunduğu və akademik məzuniyyətdən qayıtdığı halda onun əvvəllər qazandığı kreditlər (təhsil nəticələri) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 dekabr 2013-cü il tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları"nın 3.2.16-cı yarımbəndinin müddəaları gözlənilməklə nəzərə alınır.

1.11. Bərpa olunan, təhsilalma formasını dəyişən və ya köçürülən tələbələr təhsil alacağı qrup üçün müəyyən edilmiş məbləğə uyğun təhsil haqqı ödəyirlər.

**2. Tələbələrin köçürülməsi**

2.1. Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasından qəbul olunmuş tələbələrin birinci semestr, ümumi orta təhsil bazasından qəbul olunmuş tələbələrin isə üçüncü semestr başa çatdıqdan sonra mövcud Qaydalara əsasən ixtisasını və ya təhsilalma formasını dəyişmək, bir orta ixtisas təhsili müəssisəsindən digərinə köçürülmək hüququ vardır.

2.2. Ölkə daxilində tələbələrin bir orta ixtisas təhsili müəssisəsindən (və ya ixtisasdan) digərinə köçürülməsi o şərtlə aparıla bilər ki, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - DİM) tərəfindən keçirilən imtahanlarda (qəbul ilindən asılı olaraq ümumi təhsil pilləsində yekun qiymətləndirmə imtahanlarında və ya orta ixtisas təhsili müəssisəsinə qəbul imtahanlarında) tələbənin topladığı bal (daimi yaşayış yeri üzrə qeydiyyatda olduğu ərazidə yerləşən kollecə öz ixtisası üzrə köçürülmək istədiyi halda isə topladığı balın 1.5 misli) qəbul olunduğu ildə köçürülmək istədiyi orta ixtisas təhsili müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmasın və akademik

göstəriciləri yüksək olsun. Bu zaman tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 11 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nda müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

2.3. Xarici ölkə orta ixtisas təhsil müəssisələrindən köçürülmə məsələsinə baxılarkən DIM tərəfindən keçirilən imtahanlarda (qəbul ilindən asılı olaraq ümumi təhsil pilləsində yekun qiymətləndirmə imtahanlarında və ya orta ixtisas təhsili müəssisəsinə qəbul imtahanlarında) iştirak etdiyi halda tələbənin topladığı balın həmin ildə köçürülmək istədiyi orta ixtisas təhsili müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmaması və tələbənin akademik göstəriciləri nəzərə alınır.

2.4. Xarici ölkə orta ixtisas təhsili müəssisəsində təhsil alan tələbənin ailəsi və ya təhsil aldığı müddətdə ailə qurması ilə əlaqədar özü Azərbaycan Respublikasına köçdükdə bu Qaydaların 2.3-cü bəndində qoyulan tələblər, habelə tələbə akademik məzuniyyətdən qayıtdıqda əvvəl təhsil aldığı orta ixtisas təhsili müəssisəsində həmin ixtisas üzrə kadr hazırlığı aparılmadıqda bu Qaydaların 2.2-ci bəndinin birinci cümləsində qoyulan tələblər orta ixtisas təhsili müəssisəsini və ya ixtisasını dəyişməsi zamanı nəzərə alınmır.

2.5. Tələbənin təhsil aldığı orta ixtisas təhsili müəssisəsində eyni ixtisas üzrə təhsilalma formasını dəyişməsi bu Qaydaların 2.3-ci bəndinin tələbləri gözlənilməklə onun ərizəsi əsasında direktorun əmri ilə həyata keçirilir. Təhsilalma formasını qiyabi təhsilalma formasından əyaniyə dəyişdirmək istəyən çağırış yaşı çatmış oğlanlar müddətli həqiqi hərbi xidmətə çağırışdan azad və ya möhlət hüququ olması barədə arayış təqdim etməlidirlər. Bu halda orta ixtisas təhsili müəssisəsinin direktoru bir həftə müddətində həmin şəxslərin təhsilalma formasını dəyişməsi barədə onların hərbi uçotda dayandıqları rayonun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti İdarəsinə rəsmi məlumat verməlidir.

2.6. Ölkə daxilində bir orta ixtisas təhsili müəssisəsindən digərinə və ya ixtisasa köçürülmək istəyən tələbə aşağıdakı sənədləri əlavə etməklə Təhsil Nazirliyinə elektron ərizə ilə (www.transfer.edu.az ) müraciət edir:

2.6.1. tələbənin təhsil müddətində fənlər üzrə topladığı kreditləri və qiymətləri (hərf və balla) özündə əks etdirən sənəd (bundan sonra akademik transkript);

2.6.2. orta ixtisas təhsili müəssisəsinə qəbul olunarkən topladığı bal haqqında sənəd;

2.6.3. bu Qaydaların 2.4-cü bəndində göstərilən səbəblərə görə köçürülmək istəyənlər - müvafiq təsdiqedici sənədlər.

2.7. Ölkə daxilində bir orta ixtisas təhsili müəssisəsindən digərinə və ya ixtisasa köçürülmək istəyən tələbənin təqdim etdiyi sənədlər Təhsil Nazirliyində yoxlanılır, "Tələbə-məzun" dövlət elektron məlumat sistemi ilə tutuşdurulur və köçürülməsi ilə bağlı müsbət qərar qəbul olunduğu təqdirdə onun təhsil aldığı orta ixtisas təhsil müəssisəsinə müvafiq məktubla

akademik transkript blankını (bir orta ixtisas təhsili müəssisəsindən digərinə köçürülənlər üçün), köçürülmək istədiyi orta ixtisas təhsili müəssisəsinə isə öz razılıq məktubunu göndərir.

2.8. Tələbənin (ölkə daxilində köçürülənlər üçün) təhsil aldığı orta ixtisas təhsil müəssisəsinin direktoru Təhsil Nazirliyinin məktubunu aldıqdan sonra 5 (beş) iş günü müddətində tələbənin başqa orta ixtisas təhsil müəssisəsinə köçürülməsi ilə bağlı xaric olunması haqqında əmr verir və akademik transkriptlə birlikdə tələbənin şəxsi işini onun köçürüldüyü orta ixtisas təhsili müəssisəsinə göndərir. Şəxsi iş orta ixtisas təhsili müəssisəsi tərəfindən tələbənin özünə və ya etibarnamə əsasında onun səlahiyyətli nümayəndəsinə verilə bilər.

2.9. Xarici ölkələrin orta ixtisas təhsili müəssisələrində təhsilalan şəxs ərizə ilə köçürülmək istədiyi orta ixtisas təhsili müəssisəsinə müraciət edir. Ərizəyə bu Qaydaların 2.6.3-cü bəndində göstərilən sənədlərlə yanaşı, mövcud qaydada təsdiq edilmiş akademik transkript (dövlət xətti ilə təhsil alanlar istisna olmaqla) və təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənədlər əlavə olunmalıdır. Orta ixtisas təhsili müəssisəsi tələbənin həqiqətən xaricdə təhsil almasını və onun təhsil aldığı xarici ölkə orta ixtisas təhsili müəssisəsinin həmin ölkədə akkreditə olunub-olunmamasını sorğular göndərilməklə müəyyənləşdirilir və təsdiq aldıqdan sonra, onun köçürülməsi ilə bağlı Təhsil Nazirliyi qarşısında vəsatət qaldırır.

2.10. Xarici ölkə orta ixtisas təhsili müəssisəsindən köçürülmə ilə bağlı vəsatət, o cümlədən gediş-gəlişi təsdiq edən rəsmi sənədlər Təhsil Nazirliyində yoxlanılır və köçürülmə ilə bağlı müsbət qərar qəbul olunduğu təqdirdə tələbənin köçürülmək istədiyi orta ixtisas təhsili müəssisəsinə razılıq məktubu göndərilir.

2.11. Tələbənin köçürüldüyü orta ixtisas təhsil müəssisəsinin direktoru Təhsil Nazirliyindən razılıq məktubu və tələbənin şəxsi işi daxil olduqdan sonra 5 (beş) iş günü müddətində akademik transkriptlə köçürüldüyü ixtisasın tədris planındakı fənlər üzrə kreditləri müqayisə edir, uyğun olanları nəzərə alır və onun tələbə kontingentinə daxil edilməsi barədə əmr verir.

### 3. Tələbələr sırasından xaric edilmə

3.1. Tələbə aşağıdakı hallarda orta ixtisas təhsili müəssisəsindən xaric edilir:

3.1.1. öz arzusu ilə;

3.1.2. başqa orta ixtisas təhsili müəssisəsinə köçürüldükdə;

3.1.3. orta ixtisas təhsili müəssisəsinin daxili intizam qaydalarını kobud şəkildə pozduqda;

3.1.4. səhhətinə görə (həkim-məsləhət komissiyasının arayışına əsasən);

3.1.5. növbəti tədris ilinə qeydiyyatdan keçməyib semestrin sonuna qədər orta ixtisas təhsili müəssisəsi ilə əlaqə saxlamadıqda;

3.2. Xaric olunmuş oğlan tələbələr barədə məlumat onların hərbi uçotda dayandıqları rayonun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İdarəsinə orta ixtisas təhsili müəssisəsinin direktoru tərəfindən bir həftə müddətində verilməlidir.

3.3. Tələbələr sırasından xaric edilmiş şəxsə təhsil haqqında sənədin əsli və əgər müraciət edərsə təhsilini başa vurmaması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydanın 2 nömrəli əlavəsində verilmiş formaya uyğun müvafiq arayış verilir. Həmin sənədlərin surətləri və xaric olunma haqqında əmrdən çıxarış orta ixtisas təhsili müəssisəsində tələbənin şəxsi işində saxlanılır.

**4. Tələbələr sırasına bərpa**

4.1. Orta ixtisas təhsili müəssisələri tələbələri sırasından xaric olunmuş şəxslər xaric olunma vaxtından bir semestr keçdikdən sonra 10 il mddətində orta ixtisas təhsili müəssisəsinə bərpa olunmaq hüququna malikdir.

4.2. Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisəsindən xaric olunmuş şəxsin həmin orta ixtisas təhsili müəssisəsinə öz ixtisası üzrə bərpası onun ərizəsi əsasında bu Qaydaların 1.4-cü bəndində göstərilən müddətdə orta ixtisas təhsili müəssisəsinin direktorunun əmri ilə həyata keçirilir. Bütün digər hallarda bu Qaydaların 1.5 - 1.9-cu və 2.2 - 2.4-cü bəndlərinin tələbləri gözlənilməklə tələbənin bərpası Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir. Digər orta ixtisas təhsili müəssisəsinə və ya ixtisasa bərpa olunmaq istəyən tələbə ərizə ilə orta ixtisas təhsili müəssisəsinə müraciət edir. Bərpa barədə ərizəyə tələbənin təhsilini başa vurmaması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydanın 2 nömrəli əlavəsində verilmiş formaya uyğun müvafiq arayış (və ya akademik transkript), orta ixtisas təhsili müəssisəsinə qəbul olunarkən topladığı bal haqqında sənəd və əvvəlki təhsili haqqında sənədin əsli (əgər xaric edildiyi orta ixtisas təhsili müəssisəsinə bərpa olunmursa) əlavə edilir.

4.3. Xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrində təhsil alıb sonradan səhhətinə görə xaric olunan, eləcə də hər hansı bir səbəbdən xarici ölkə orta ixtisas təhsili müəssisələrindən tələbələr sırasından xaric edilmiş şəxslər ixtisasına uyğun olaraq Azərbaycan Respublikasının müvafiq mülki orta ixtisas təhsili müəssisələrinə bərpa oluna bilərlər. Onların bərpası bu Qaydaların 1.4-cü bəndində göstərilən müddətdə bu Qaydaların 2.6-cı bəndində göstərilən sənədləri müvafiq mülki orta ixtisas təhsil müəssisəsinə təqdim etməklə, orta ixtisas təhsili müəssisəsinin müraciəti əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir.

4. 4. Orta ixtisas təhsili müəssisəsinə ümumi orta təsil bazasından qəbul olunan və birinci tədris ilində xaric edilən tələbə yalnız öz ixtisası üzrə əvvəl təhsil aldığı orta ixtisas təhsili müəssisəsinə ödənişli əsaslarla bərpa oluna bilər.

4.5. Bərpa olunmuş tələbələrin şəxsi işi bərpa edilir. Bu şəxsi işə direktorun adına yazılmış ərizə, bərpa olunma haqqında əmrdən çıxarış, digər orta ixtisas təhsil müəssisəsindən köçürüldüyünə görə xaric edilmiş tələbələrin şəxsi işinə isə tələbənin təhsilinin yarımçıq qalması barədə dövlət nümunəli arayış və xaric olunma haqqında əmrdən çıxarış da əlavə edilir.

**5. Akademik məzuniyyətin verilməsi**

5.1. Tələbələrə akademik məzuniyyət aşağıdakı hallarda və müddətlərdə verilir:

5.1.1. müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - xidmət müddətinə;

5.1.2. səhhətinə görə - həkim-məsləhət komissiyasının arayışında göstərilən müddətə;

5.1.3. sosial məzuniyyətə çıxdıqda - qanunvericiliklə müəyyən olunmuş müddətə;

5.1.4. müxtəlif proqramlar əsasında xarici ölkələrə təhsil almağa getdikdə - proqramda göstərilən müddətə.

5.2. Akademik məzuniyyətdən qayıdan şəxslər tədris prosesinə növbəti semestrdən buraxılırlar.